# ÖLÜMSÜZLÜYÜN ÜNVANI

## Şəhidlər Xiyabanında etdiyimiz söhbət

**Hər dəfə ötən əsrə, daha doğrusu, Qarabağ hadisələrinin başladığı tarixə dönəndə mənə elə gəlir ki, dərdlərim də yenidən doğulmağa başlayır... Mənə elə gəlir ki, içimdəki nisgil də, ağrı-acı da, göz yaşı da, hətta burnumun ucunu göynədən torpaq həsrəti də yenidən cücərir. Bax, onda əllərimlə üz-gözümü qapayıram. İmkanım olsa başımı da balıncın altında gizlədərəm... Ona görə ki, bütün bu yaşananların yenidən başlanmasını, yenidən həmin o faciələrin anbaan şaxələnməsini istəmirəm. Doğrudur, bəzən deyirlər ki, yenidən doğulsam həyatı tamam fərqli yaşayardım, başqa arzuların, başqa ideyaların dalınca gedərdim. Vallah, mən əlimi ürəyimin üstünə qoyub deyirəm və demişəm: heç yenidən doğulmaq istəmirəm. Çünki lənətlənmiş bu dünyada yaxşı heç nə görməmişəm və görmürəm də. İnamım da yoxdu ki, əgər mən yenidən doğulsam dünyada nə isə müsbətə doğru dəyişmiş olsun. Çünki bu dünyanın mayası xarabdı. Bu dünyanın tarazlığı elə pozulub ki, Tanrının "ol!" deyib yaratdığı insanları bu dünyanı elə günə qoyublar ki, Məmməd Araz demişkən, "düzələn dünya deyil". Əgər haqsız haqlı sayılırsa, puluna, malına, gücünə, nüfuzuna, imtiyazlarına görə, onda bu dünya düzələr? Oğru doğruya məsləhət verirsə, özünü nümunə göstərirsə, onda bu dünya düzülər? Vallah, düzəlməz, billah düzəlməz. Amma...**

İçimizdə dünyanın guya ki, "düz" dövrü var idi. Və hamımız da təbii ki, işi-gücü torpaq, dəzgah, pambıq, heyvandarlıq,



oğul-uşaq saxlamaq, böyütmək, ərsəyə çatdırmaq olanlar düşünürdülər ki, elə indi də düşünürlər ki, onda "qurd quzuyla otlayırdı", hər kəs öz haqqını alırdı, hər kəs öz yerini bilirdi... Və arqument də onu gətirirdilər ki, Sovet dövləti fəhlənin, kəndlinin, kasıbın, fəqir-füqaranın dövlətidi. O sahib çıxırdı əliqabarlıya. İndi də elə mənim atam da, anam da, yaşda məndən böyüklər də o günün həsrətiylə yaşayırlar. Və deyirlər ki, Qorbaçov olmasaydı o dövlət ermənilər qudurtmazdı... o dövlət əlsiz-ayaqsızı, imkansızı sahibsiz buraxmazdı...

Bəli, bütün bunları bilgisayara diktə



edə-edə anamdan, atamdan soruşub cavabını tam ala bilmədiyim sualı içimdə təkrarlayıram. Məgər o hökumətin zamanında qudurmamışdı ermənilər? Məgər onda başlamamışdı Göyçə mahalından, İrəvandan departasiyalar? Bəs hara baxırda o Sovet hökuməti? Elə indi xatırlamağa məcbur olduğum tarixin özü - 1988-ci il məgər Sovet hökuməti deyildi onda? Bax, elə onda həyatın nə olduğunu, yaşamın nə olduğunu, arzuların nə olduğunu düşünən, bununla yaşayan, buna can atan Cəmil müəllimlə Firuzə xanım məgər Göyçə mahalının Nərimanlı kəndində yaşamırdılar?

Mən bu sualları içimdən elə-belə keçirmirəm. Çünki üç gün öncə 1992-ci ilin avqust ayının 27-də həmin Cəmil müəllimlə Firuzə xanım ciyərparalarını - Şövqüyar Abdullayevi itirdilər. Bax, elə burda, sözümün mürəkkəbi qurumamış deyim ki, onlar oğullarını cismən itirdilər. Əvəzində isə Azərbaycanın Milli Qəhrəmanı Şövqüyar Abdullayevi qazandılar! Adını Şəhidliyin zirvəsinə ucaldan, Azərbaycanın qəhrəmanlıq və hərb tarixinə yazan Şövqüyar Cəmil oğlu Abdullayevi. Onda Şövqüyarın 23 yaşı var idi. Könüllü şəkildə ali təhsil alıb mühəndis olacağı universitetin 4-cü kursundan yollanmışdı cəbhəyə. Tank komandiri idi. Sovet ordusunda xidmətini Monqolıstanda keçirmişdi. Əsgərliyin nə olduğunu az-çox bilirdi. Amma döyüş ruhunu, cəngavərlik, sərkərdəlik bacarığını anasının südüylə, ədəbiyyat müəllimi olan atasının verdiyi tərbiyədən almışdı. Hələ sevginin yuxusuz gecələrini yaşamamışdı... hələ sevgi məktublarını nə poçtla, nə də kitab arasında kiməsə göndərməmişdi. Bəlkə də var idi, amma içində idi. Dilində, hərəktində bir sevgi var idi - o da Vətən! Çünki...

Cəmil müəllim Nərimanlı kəndində sayılan, seçilən bir ailənin başçısı, 8 uşağın atası və həm də bir kəndin ziyalısı, müəllimi idi. 2 qız, 6 oğul böyüdürdülər Firüzə xanmıla birlikdə. Böyük oğlanları Vüqar və Elcan həyatda öz yollarını fərqli seçmişdilər, fərqli müəyyənləşdirmişdilər. Biri neft sahəsində çalışırdı, biri milli təhlükəsizlik. Vüqar müəllim bu gün də SOCAR-ın Özbəkistan nümayəndəliyində işləyir. Elcan müəllim isə ehtiyatda olan polkovnikdi. Sonra dünyaya Şövqüyarla Aslan gəldi. Şöqüyar mühəndis olmağa qərar vermişdi, Aslan da həkim. İkisi də 4-cü kurs tələbəsi idilər və ikisi də könüllü olaraq cəbhəyə getdilər. Artıq 1-ci kursda olanda hadisələr başlanmışdı. Bir gözləri televizorun ekranında, bir ayaqları Azadlıq meydanında, ürəkləri isə Nərimanlı kəndində. Nələr baş verdiyini, bu prosesin nə ilə bitəcəyini öyrənməyə can atırdılar. Ona görə də dərslərdə də sona qədər otura bilmirdilər. Artıq Ermənistanla da əlaqələr də kəsilmişdi. Hər gün bir-birindən ağır, acı xəbərlər gəlirdi. Köç başlamışdı. Özü də məcburi, faciəli köç...

### *Bu da səngər*

Tibb universitetinin 4-cü kursunda oxuyan Aslan universitetin həyətinə daxil olanda bir izdihamla qarşılaşdı. Tez kurs yoldaşlarına yaxınlaşdı. Məlum oldu ki, Qarabağda tibb işçisi kimi çalışmalı olan kadrlara ehtiyac var. Amma burda məcburiyyət yoxdur. Ancaq könüllülük əsasında götürürlər cəbhəyə getmək istəyənləri. Arıq, amma hamıdan çevik və cəld olan Aslan dostlarının üzünə baxdı. Sanki soruşmaq istəyirdi ki, getmək istəyəniniz var? Amma soruşmadı. Çünki bəziləri gözlərini gizlədilər, bəziləri üzlərini yana çevirdilər. Bax, o gözlərini gizlədənlər, üzlərin yana çevirənlər elə həmin gündən Aslanın dost səhifəsindən öz adlarını özləri sildilər. Aslan universitetin akt zalına tələsdi. Burda könüllüləri qeydə alırdılar. Yaxınlaşdı. Hərbi komissarlığın işçisi onun üzünə, boy-buxununa baxıb bir az təəccüblə:

- Siz də getmək istəyirsiniz? - deyə bir az təəccüblə soruşdu.

Aslan bunun nəyə təəccüb etdiyini anlasa da, büruzə vermədən can-cəsədini 10-15 dəfə böyük göstərə biləcək zəhmli bir səslə:

- Bəli, mənim də adımı yaz! - dedi.

Və komissarlığın işçisi səsdəki zəhmi





elə bil göydə tutdu. Ona görə də tərəddüd etmədən tələsik yazdı: "Abdullayev Aslan Cəmil oğlu!"

Həmin gün artıq Cəmil müəllimin iki oğlu döyüş paltarı geyinmişdi. İndi Firuzə ananın iki ciyərparası əsgər idi. Baxmayaraq ki, onun kirpikləri nəmlənmişdi, dodaqları əsirdi. Amma Cəmil müəllimin məğrur görkəmi onu toxtadırdı. Axı onlar əsgər valideyni idilər.

### *Həyatın bir qəribəliyi*

Hər iki qardaş cəbhənin ən ağır bölgəsində ön səngərdə idi. Şövqüyar Ağdərədə tank komandiri, Aslan Kəlbəcərdə həkim kimi. Onların səngərlərinin bir-birindən ara məsafəsi 10-12 kilometr idi. Amma buna baxmayaraq, yolları kəsişmirdi. Sadəcə, kimlərin vasitəsilə xəbər tutmağa çalışırdılar. O da çox çətinliklə. Amma Aslana qürur verən bir məqam var idi, o da tank komandiri olan qardaşının döyüşlərdə göstərdiyi şücaət. Bu barədə hərbi hospitala gələn yaralılar da danışırdı, onları gətirən əsgərlər də, həkimlər də. Hamı deyirdi ki, Şövqüyar adlı bir döyüşçü var, od parçasıdı. Bütün canıyla, qanıyla köklənib düşmənə qarşı. Ona görə də onun iştirakçısı olduğu döyüşlər düşmənin canına vahimə salır.

Təbii ki, bu da kiçik qardaşı qürurlandırır, aradabir özünə yaxın bildiyi şəxslərə Şövqüyarın onun qardaşı olduğunu söyləyirdi.

***<u>Haşiyə:</u>*** **Mən Aslan həkimlə 1992-ci ildə, Novruz bayramından bir neçə gün sonra qarşılaşdım. "Xalq ordusu" qəzetinin cəbhə müxbiri kimi səngərləri gəzə-gəzə gəlib çıxmışdım Gəncəyə və ordan da Kəlbəcərə. Yolda bir tibb maşını ilə qarşılaşdım. Əsgərlər həmin maşını saxladıb məni də özləri ilə aparmaları üçün sürücüdən xahiş etdilər. Sürücü çevrilib həkimə tərəf baxdı. O da, "otursun" - dedi.**

**Yol boyu söhbət etdik. Artıq Kəlbəcərə yaxınlaşdıqca atəş səsləri əməlli-başlı eşidilirdi. Magistral yolun ortasında maşını saxladılar:**

**- Biz Ağdabana gedirik! - deyə həkim mənə tərəf çevrildi.**

**- Mən də gedirəm! - dedim. - Onsuz da Ağdabanda olmaq çoxdankı arzum idi. Dədə Şəmşirin kəndini ziyarət etmək özü də bir savabdı, - dedim.**

**Həkim gülümsəsə də hiss etdim ki, dediklərim ürəyincə olmadı. Çünki indi ziyarət məqamı deyildi. İndi yer, göy qan ağlayırdı... indi torpaq qan fışqırırdı...**

**Bax, onda ilk dəfə qarşılaşdığım Aslan həkimlə həyat məni ikinci dəfə Gəncədə avqust ayında yenidən görüşdürdü. Bu dəfə o, səngərə yox, Bakıya tələsirdi. Onda 1992-ci ilin avqust ayının 28-i idi. Və mən təqribən bir ay bundan öncə həkimlə onun mənim şair dostumuz Sabir Abdinin məclisində görüşəndə tanıdıq bir-birimizi. Bax onda bildim ki, Aslan həkim Bakıya Şəhidlər Xiyabanına tələsirmiş. Şəhid qardaşı Şövqüyar Cəmil oğlunu ziyarət etməyə!**

**(Ardı növbəti sayımızda)**

**Əbülfət MƏDƏTOĞLU**